# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 10 (1650) 31 may 2017 - ci il Qiymətı 50 qəpik




## “Bakı Ürək Günləri” V Beynəlxalq Konqresinin iştirakçılarına

**Hörmətli konqres iştirakçıları!**

Sizi – Azərbaycan kardioloqlarını və müxtəlif ölkələrdən Bakıya gəlmiş alimləri səmimi qəlbdən salamlayır, hər birinizə insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

“Bakı Ürək Günləri” Beynəlxalq Konqresinin təşkilinin artıq ənənəvi şəkil alması onun kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafı sahəsində nüfuz qazandığını göstərir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan konqresinizin işində dünyanın müxtəlif mötəbər tibb mərkəzlərini, o cümlədən ABŞ-ın Klivlend Klinikasını, Almaniyanın Berlin Ürək Mərkəzini, Türkiyə, Rusiya, İsveçrə, Avstriya və digər ölkələrin tibb müəssisələrini təmsil edən 400-ə yaxın kardioloq alim və cərrahın iştirakı təqdirə layiqdir.

Yaxşı məlumdur ki, kardioloji xəstəliklər müasir dövrdə insanların ən çox məruz qaldığı xəstəliklərdəndir. Dünyanın nüfuzlu kardioloji mərkəzlərində aparılan ən çətin əməliyyatların hazırda ölkəmizdə yeni nəsil kardioloqların fəaliyyəti sayəsində uğurla həyata keçirilməsi fərəh doğurur. Beynəlxalq təcrübədən qarşılıqlı surətdə lazımınca faydalanmaqla kardiologiyanın aktual problemlərinin həllinə yönəlmiş birgə səylərinizin gözəl bəhrə verəcəyinə inanıram. Sevindirici haldır ki, Azərbaycan səhiyyəsinin bugünkü vəziyyəti təbabətin sürətlə inkişaf edən sahələrindən biri kimi kardiologiya elminin ən son nailiyyətlərinin tətbiqinə, ürək xəstəliklərinin müasir terapevtik və cərrahi üsullarla müalicəsinin təmin olunmasına əlverişli şərait yaradır.

Ölkəmizdə gerçəkləşdirilən bir çox tədbirlər, xüsusilə əhalinin müntəzəm dispanserizasiyası, sağlam həyat tərzinin təbliği, idmanın və bədən tərbiyəsinin geniş vüsət alması kardioloji xəstəliklərin profilaktikasına xidmət edir. Builki konqresinizin böyük müvəffəqiyyətlə başa çatmış IV İslam Həmrəyliyi Oyunlarının ardınca keçirilməsi idman və təbabət arasında bağlılıq baxımından rəmzi məna daşıyır. Son illər Azərbaycanda mütəmadi təşkil olunan beynəlxalq səviyyəli mötəbər tədbirlər müxtəlif ölkələrdən gələn qonaqlara dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş Bakı ilə, xalqımızın mədəniyyət, elm və iqtisadiyyatda nail olduğu parlaq nəticələrlə tanışlıq imkanı yaratmışdır. Əminəm ki, siz də doğma vətəninizə xalqımız və şəhərimiz haqqında aldığınız xoş təəssüratlarla dönəcəksiniz.

Ümidvaram ki, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik bu konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək və tibb elminin inkişafına layiqli töhfəsini verəcəkdir.

Ən səmimi arzularla,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2017-ci il.

**BU SAYIMIZDA**


İndoneziya səfiri universitetimizin qonağı olub 3





Tədris Cərrahiyyə Klinikada Qalxanabənzər Vəzi Gününə həsr olunmuş pulsuz müayinə aksiyası keçirildi 4





Azərbaycan Tibb Universitetində 2016-2017- ci tədris ilində yaz semestrinin imtahan sessiyasına və Buraxılış Dövlət Attestasiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri müzakirə olunub 2

Tədris Terapevtik Klinikada növbəti xəstə təhlilləri aparılıb 4, 7

Ortopedik stomatologiya kafedrasında tələbələr və rezidentlər üçün seminarlar keçirilir 5





Kitabxanamızın fondundan minlərlə mütəxəssis yararlanır 3

Xalq şairi məhəbbətlə xatırlandı 6

Şagirdlər alimin həyat – fəaliyyəti ilə tanış olublar 7

Tibbi profilaktika fakültəsində yeni növ treyninqlər keçirilir 5

Tələbələrimiz beynəlxalq olimpiadada uğur qazandı 7

# BÖYÜK ELMİ ŞURADA

**Mayın 30-da Böyük Elmi Şuranın növbəti toplantısı keçirildi. Toplantını açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələlərin müzakirəsinə keçməzdən əvvəl fizioterapiya və idman təbabəti kafedrasının müdiri, professor Əlişir Musayevi və normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədovu AMEA-nın müxbir üzvlüyünə seçilməsi, mikrobiologiya kafedrasının müdiri, professor Zakir Qarayevi isə AMEA-nın Mirqasımov adına mükafatına layiq görülməsi münasibətilə təbrik etdi. Bundan sonra "Azərbaycan Tibb Universitetində 2016-2017-ci tədris ilində yaz semestrinin imtahan sessiyasına və Buraxılış Dövlət Attestasiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" barədə universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevin məruzəsi dinlənildi.**





2017-ci ilin may ayının respublikamızda əlamətdar hadisələrlə yadda qaldığını, müstəqil ölkəmizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünün ölkəmizdə, o cümlədən universitetimizdə təntənə ilə qeyd edildiyini deyən prorektor mayın 10-dan 22-dək Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycan standartları ilə uğurla başa çatdığını vurğuladı: "Azərbaycan 54 İslam ölkələrinin birincisi kimi böyük qələbə ilə, 162 medalla (75 qızıl, 50 gümüş, 37 bürünc) bu oyunları başa vurdu. Bu tarixi qələbənin qazanılmasında Respublikamızın Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident, IV İslam Həmrəyliyi Oyunlarının təşkilat komitəsinin sədri Mehriban xanım Əliyevanın apardığı böyük təşkilati işi, diqqəti və qayğını xüsusilə qeyd etmək istərdim. Universitetimizin minlərlə tələbəsi və könüllüləri IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış mərasimlərində, həm də ayrı-ayrı stadionlarda və idman zallarında oyunların izlənilməsində iştirak etdi. Buna xüsusi diqqət və qayğı göstərdiyi üçün universitetin rektoru, professor Gəray Gəraybəyliyə, fəallıq göstərən tələbələrimizə, dekanlarımıza, xüsusən açılış və bağlanış mərasimində tam heyətlə iştirak edən hərbi fakültənin dekanına, zabitlərinə və tələbələrinə təşəkkürümü bildirirəm".

S.Əliyev ölkəmizdə ali tibb təhsili sisteminin Avropa təhsil məkanına inteqrasiyası və ali tibb təhsilinin forma və məzmununun Boloniya Bəyannaməsi prinsiplərinə uyğunlaşdırılmasının universitet kollektivi qarşısında əsas vəzifə kimi qoyulduğuna diqqət çəkdi. Hərbi tibb fakültəsi və hərbi tibb məktəbi istisna olmaqla universitetin bütün fakültələrində və ixtisaslarında tədrisin Boloniya bəyannaməsinin müddəalarına uyğun həyata keçirildiyini dedi: "Rektorluq, tədris hissəsi və fakültə dekanlıqları tələbələrin dərsə davamiyyətini gündəlik diqqətdə saxlamaq məqsədilə tədris binalarında və klinik bazalarda vaxtaşırı reydlər keçirmiş, tələbələrin dərsə davamiyyəti isə dekanlıqların və rektorluq şurasının bütün iclaslarının müzakirə predmeti olmuş, ayrı-ayrı fakültələrin elmi şuralarında semestr ərzində bir neçə dəfə müzakirəyə çıxarılmışdır. Əsasən universitetdə təhsil alan tələbələrin böyük əksəriyyətinin dərsə davamiyyəti qənaətbəxşdir. Lakin bir qrup tələbə "Ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" nın imkan verdiyi həddə qədər - fənn üzrə 25%-ə qədər dərs buraxmağa başlamışdır".

Məruzədə həmçinin qeyd edildi ki, dərsə gecikən tələbələrə güzəşt edildiyindən dərslərə kütləvi gecikmə halları müşahidə olunur, bu isə tədrisin ritmini pozur. Ona görə də dərsburaxma ilə əlaqədar məsələ universitetin Böyük Elmi Şurasında müzakirə olunmalı, tibb təhsilinin xarakter xüsusiyyətini nəzərə alaraq müvafiq qərar qəbul edilməlidir.

Universitetdə təhsil alan xarici tələbələr haqqında statistik məlumatlar da məruzədə öz əksini tapdı: "2016/2017-ci tədris ilinin əvvəlindən ATU-da 26 ölkədən 791 nəfər tələbə (bu tələbələrdən 6 nəfəri - İordaniya vətəndaşları dövlət xətti ilə), 10 ölkədən isə 689 dinləyici (bunlardan 40 nəfər - YÖK yolu ilə), bundan əlavə 1 nəfər ixtisasartırma kursunda, 30 nəfər rezidenturada və 6 nəfər isə magistraturada təhsil alır".

S.Əliyev onu da qeyd etdi ki, kredit sistemi ilə təhsil alan tələbələrin imtahanları universitetdə yaradılmış Virtual Test Mərkəzinin köməyi ilə mərkəzləşdirilmiş şəkildə kompyuter vasitəsilə test üsulu ilə aparılır: "Cari tədris ilinin yaz semestrinin imtahan sessiyası da kredit sistemi ilə təhsil alan tələbələr üçün həm semestr, həm də dövlət imtahanları kompyuter vasitəsilə test üsulu ilə həyata keçiriləcəkdir. Universitetin axırıncı kurs tələbələri dövlət imtahanı qabağı son sessiya imtahanlarına başlamışlar. Bu günə olan məlumatlara görə, imtahana buraxılanlardan 37 nəfər imtahanlarda iştirak etməmiş, 16 nəfər imtahana buraxılmamışdır. Belə demək mümkünsə, kompyuterlər vasitəsilə test üsulu ilə imtahanın nəticələri onların hazırlıqlarına müvafiq olmuşdur. Qeyd etməliyəm ki, cari tədris ilindən I kursdan başlayaraq kompyuter vasitəsilə test üsulu ilə imtahanların aparılmasında müəyyən dəyişikliklər edilmişdir. Belə ki, sualların sayı 50-dən 25-ə endirilmiş, hər tələbəyə 10 açıq sual təqdim olunacaq ki, bu da tələbədən gizli saxlanılır və çalışırıq ki, tələbələrin imtahanda qazandığı nəticələr reallığa daha yaxın olsun, başqa sözlə desək, "əzbərçilikdən real biliyə" devizini həyata keçirək".

Çıxışında istehsalat müşavirələrinə də toxunan natiq dedi ki, cari tədris ilinin yaz semestrində aparılan istehsalat müşavirələri istər professor-müəllim heyətinin, istərsə də tələbələrin iştirakı baxımından qənaətbəxş olmuşdur. Ona görə də tələbələr tərəfindən qaldırılan məsələlərin yerindəcə həll edilməsinə imkan yaranmışdır: "Universitetin prorektorları - professor S.Əliyev, dosent R.Bəylərov, dosent N.Xəlilov, Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent C.Qasımov, tədris şöbəsinin müdiri, dosent N.Qasımov, təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor A.Qurbanov rektorun sərəncamına əsasən ayrı-ayrı iclaslara təhkim edilmişlər. Onların iştirakı ilə kafedralarımızı və tələbələri narahat edən bir sıra məsələlər açıq müzakirə obyektinə çevrilmişdir".

Rezidenturanın qəbul imtahanları haqqında da bəhs edən prorektor qeyd etdi ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulundan sonra tibb təhsili əsas və rezidentura təhsilinə ayrılmışdır: "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq 2011-ci ildən başlayaraq ölkədə rezidentura təhsilinə start verilmişdir.

Ənənəvi olaraq rezidenturaya qəbul imtahanları Dövlət Attestasiyasından sonra aparılırdı. Artıq bir neçə ildir ki, rezidenturaya qəbul imtahanları 2 mərhələdə aparılır və hər mərhələ 100 balla qiymətləndirilir. Cari tədris ili üçün I mərləhə - baza tibb fənləri üzrə 09 aprel 2017-ci ildə aparılmış, II mərhələ - klinik fənlər üzrə 2017-ci ilin iyul ayına planlaşdırılır.

Rezidenturaya 2017-ci il qəbulu üçün 1077 nəfər sonuncu kurs tələbəsi və əvvəlki illərin məzunları müraciət etmişdir ki, onlardan 54 nəfəri xarici ölkədə təhsil müəssisələrini bitirənlərdir. Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq I mərhələ üzrə müsabiqə şərti 40 bal saxlanılmışdır. Sənəd verənlərin böyük əksəriyyəti universitetimizin məzunları və ya sonuncu kurs tələbələridir. Ən yüksək toplanan bal 83 bal olmuşdur".

Çıxışının sonunda imtahanların gedişinə ciddi nəzarət olunacağını və hər bir neqativ hal haqqında siqnallara çox kəskin reaksiya veriləcəyini vurğulayan S.Əliyev universitet kollektivinin bu məsul və çətin işin öhdəsindən bacarıqla gələcəyinə əminliyini bildirdi.

Kafedra müdirləri Zübeyid Tağıyev, Elçin Ağayev və Cavanşir İsayev, təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri Akif Qurbanov çıxışlarında məruzəni qənaətbəxş qiymətləndirərək bu sahədə görülən işlərdən və həllini gözləyən problemlərdən söhbət açdılar. Natiqlər həmçinin mövcud olan bir sıra nöqsanların aradan qaldırılması üçün təklif və rəylərini bildirdilər.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor universitetin çoxşaxəli fəaliyyətində tədrisin mühüm yer tutduğunu, hər il bir neçə dəfə bu məsələnin müzakirə edildiyini, bu istiqamətdə müəyyən islahatların aparıldığını söylədi.

İslahat müşavirələrinin universitetimizdə uzun illər ərzində ənənəvi olaraq keçirildiyini xatırladan G.Gəraybəyli artıq ikinci ildir ki, şəxsən tələbələrlə görüşdüyünü, bu ildən görüşlərin formatının dəyişildiyini vurğuladı: "Mən dekanların, dekan müavinlərinin, yəni rəsmi şəxslərin iştirakı olmadan tələbələrlə 6 görüş keçirərək hər kursun tələbələri ilə ayrı-ayrılıqda söhbət aparmışam. Mənimlə görüşlərdə tələbələr həddindən artıq böyük problemlər qaldırıblar. Bu problemləri qeydə almaqla hər kafedra haqqında tələbələrin dedikləri məlumatları əldə etmişəm. Düşünürəm ki, gələcəkdə bu görüşlərin formatını yenidən dəyişmək lazımdır. Qoy kafedra müdirləri, adları çəkilən müəllimlər də bu görüşlərdə iştirak etsinlər, tələbələrin onların haqqında dediklərini eşitsinlər. Bəlkə bundan sonra müəyyən nəticələr ola. Elə məsələlər var ki, ildən-ilə tələbələrin şikayəti əsasında müzakirə olunur, amma heç nə dəyişmir. Mən hesab edirəm ki, dəyişəcək, mütləq dəyişəcək və dəyişməlidir".

Görüşlərdə tələbələrin təkcə neqativ hallardan deyil, müsbət məqamlardan da danışdıqlarını diqqətə çatdıran rektor bildirdi ki, I, II və III kurs tələbələri bu il nəzəri kafedraların daha obyektiv olduqlarını xüsusilə vurğuladılar. İraq səfiri ilə görüş zamanı da obyektivliyin artması barədə fikirlər səsləndi ki, bu da sevindirici haldır.

Universitetin öz məhsuluna cavabdeh olmasının zəruriliyini önə çəkən rektor tədrisin keyfiyyətini yüksəltmək, tələbələrin biliyini obyektiv qiymətləndirmək üçün müəllimləri məsuliyyətli olmağa çağırdı: "Məruzədə də haqlı olaraq vurğulandı ki, bəzi müəllimlər ancaq dərs soruşmaqla məşğuldur. Beynəlxalq praktikada belədir ki, müəllim ilk növbədə dərsi izah etməli, əsas istiqamətləri verməlidir. Soruşmaq bəlkə də onun işi deyil, buna görə qiymətləndirmə qurumları, komandaları var".

Yekun nitqində kafedra müdirlərinin tədris, müalicə və elm prosesindəki roluna da toxunan G.Gəraybəyli diqqəti təəssüf doğuran bəzi məqamlara yönəltdi: "Hər bir kəs yazdığı təqdimat əsasında məsuliyyət daşımalıdır. Artıq müasir tələblər başqadır. Hansısa cavan bir kadrı işə götürəndə bugünkü tələblərlə yanaşmaq lazımdır. İşə qəbul, eləcə də vəzifədən-vəzifəyə keçid obyektivlik şəraitində aparılmalıdır. Hər bir vəzifəyə alternativ namizədin olması yaxşı bir haldır. Mən hesab edirəm ki, gələcəkdə kafedra müdirlərinin özlərinin seçkilərində də kafedradan və ya kənardan mütləq alternativ namizədin irəli sürülməsi praktikasına başlamaq vacibdir. Çünki bəzi kafedralarda, yumşaq desək, mühit heç də sağlam deyil. Kafedra müdirləri öz əməkdaşlarından, əməkdaşlar isə ayrı-ayrılıqda kafedra müdirlərindən şikayət edirlər. Təbii ki, belə kollektivdə normal fəaliyyətdən, normal tədrisdən söhbət gedə bilməz".

Bəzi kliniki kafedraların müdirlərinin və tədris hissə müdirlərinin iş vaxtında özəl klinikalara "qaçması"nı kəskin tənqid edən universitetin rəhbəri həmin kafedraların müdirlərinə sonuncu xəbərdarlıq ediləcəyini, barələrində ciddi cəza tədbirlərinin görüləcəyini vurğuladı.

Ümumilikdə tədris prosesinin qənaətbəxş olduğunu bildirən rektor yeni dərs ilindən hər kurs üzrə yeni qurulmuş imtahan proqramına keçiləcəyini də diqqətə çatdırdı.

ATU-nun rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının Əsasnaməsini və tərkibini, ATU-nun Tədris Stomatoloji Klinikasının qiymət cədvəlini və ATU-nun nəzdində fəaliyyət göstərən laboratoriyaların əsasnamələrini təsdiqləyən elmi şura valideyni olmayan uşaqların təhsil haqqından azad olmaları, tələbələrin yekun qeydiyyat vərəqələrinin doldurulması, Elektron Universitet, ATU-nun saytına məlumatların yerləşdirilməsi, yataqxana müqavilələrinə yenidən baxılması və digər məsələləri də müzakirə edərək müsabiqə məsələlərinin həlli ilə öz işini yekunlaşdırdı.

Arif MƏMMƏDLİ
Fotolar Cənnətalı Çingizindir

# İndoneziya səfiri universitetimizin qonağı olub

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi beynəlxalq münasibətlərin daha da genişləndirilməsi istiqamətində görüşləri, müxtəlif təşəbbüsləri davam etdirir. Bu fəaliyyət çərçivəsində ATU-nun rektoru, professor Gəray Gəraybəyli İndoneziyanın Azərbaycandakı səfiri Husnan Bey Fananieni qəbul edib.**

İctimai universitetlərin hamısı dövlət tərəfindən maliyyələşir. İndoneziyada müxtəlif səviyyələr üzrə təhsil almaq mümkündür. İndoneziya universitetləri arasında dünyanın ən yaxşı 100 ali məktəbi sırasına düşənləri də var.

ATU rektoru, professor Gəray Gəraybəyli ətraflı məlumata görə səfirə təşəkkürünü bildirərək gələcəkdə İndoneziya universitetləri ilə qarşılıqlı





Görüşün əvvəlində səfir Husnan Bey Fananie təmsil etdiyi ölkə və oradakı təhsil sistemi haqqında məlumat verib. Onun sözlərinə görə, adalar ölkəsi olan İndoneziyada 800-dən çox tayfa və etnik qrup yaşayır: "Burda əhali 500-dən çox dinə sitayiş edir. Dini ölkə olmasa da, İndoneziyada hər kəs inanclıdır. Ölkəmiz çox genişdir. Onun şərqindən qərbinə qədər olan məsafə Bakıdan Londona qədər olan məsafəyə bərabərdir. İndoneziya 34 əyalətdən ibarət, ən böyük sahilə malik olan ölkədir. Ekvator üzərində yerləşdiyindən İndoneziyada qar yağmır, nə çox isti, nə də soyuq olmur. Orada ya quru mövsüm olur, ya da yağışlı".

Cənab səfir Fananie Azərbaycan xalqının çox mehriban, qonaqpərvər olduğunu bildirdi. O, hələ uşaqlıq illərindən ölkəmiz haqqında məlumatlı olduğunu, Azərbaycan ədəbiyyatı ilə tanış olduğunu dedi. Uşaq yaşlarında, xüsusilə də Nizami Gəncəvinin əsərlərini, "Leyli və Məcnun"u oxuduğunu söylədi.

Səfir İndoneziyada fəaliyyət göstərən universitetlər və səhiyyə sistemi haqqında məlumat verdi. Onun sözlərinə görə, ölkəsində 400-ə yaxın universitet fəaliyyət göstərir. Bunların bir qismi də tibb sahəsi üzrə ixtisaslaşıb. Universitet və institutlarla yanaşı, İndoneziyada ixtisaslaşmış kolleclər və akademiyalar da fəaliyyət göstərir.

əlaqələrin sıxlaşdırılmasının tərəfdarı olduğunu qeyd etdi. O, istər təhsil, istərsə də səhiyyə sahəsində bu cür ölkə ilə təcrübə mübadiləsinin hər iki tərəfə faydalı ola biləcəyini vurğuladı: "Bizim ölkə İndoneziya qədər geniş deyil. Lakin Azərbaycan ali təhsil müəssisələri dünyanın nüfuzlu universitetləri sırasına daxil olmaqdadırlar. Azərbaycan Tibb Universiteti ölkəmizdə yeganə tibb təhsili verən qurumdur".

G.Gəraybəyli indiyədək dünyanın müxtəlif ölkələrindən olan universitetlərlə əməkdaşlıq qurulduğunu qeyd edərək, bu sırada İndoneziyanın da adının olmasını istədiyini bildirdi: "İndoneziya universitetləri və ya klinikalarından nümayəndələr ATU-da mühazirə ilə çıxış edə bilərlər. Həmçinin, ATU mütəxəssisləri də öz təcrübələrini sizin ölkədə paylaşa bilər. Düşünürəm ki, bu, hər iki tərəf üçün maraqlı və faydalı olardı". G.Gəraybəyli ATU-nun ən çox əcnəbi tələbə qəbul edən universitetlərdən biri olduğunu da bildirdi. Qeyd olundu ki, hazırda universitetdə təhsil alan 7000 tələbədən təxminən 1500-dən çoxu xaricilərdir.

Daha sonra qarşılıqlı əməkdaşlığın əsasları ilə bağlı fikir mübadiləsi aparıldı. Görüşdə ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov, rektorun köməkçisi Ceyhun Məmmədzadə iştirak edirdilər.

# Kitabxanamızın fondundan minlərlə mütəxəssis yararlanır

**Azərbaycan Tibb Universiteti zəngin kitabxanaya malikdir. Bunu kitabxanadakı ədəbiyyatın sayı, müxtəlif bölmələri əhatə etməsi də sübut edir. ATU-nun əsaslı kitabxanasının direktoru Ziyafət Eminova deyir ki, hazırda burada 687 minə yaxın (686.725) dərslik və elmi ədəbiyyat saxlanılır: "Kitabxanada yeddi şöbə fəaliyyət göstərir. Bunlar - oxuculara xidmət şöbəsi, elmi fond, dissertasiya və aftoreferatlar fondu, elmi biblioqrafiya şöbəsi, elmi kitab işləmə və kataloqlaşdırma şöbələridir".**





Z.Eminovanın sözlərinə görə, kitabxana fondundakı nəşrlər tibb üzrə mütəxəssislərin hazırlanmasında böyük rol oynayır. Lakin əsaslı kitabxanadan təkcə tələblər yox, eyni zamanda müəllim və tədqiqatçılar da istifadə edirlər: "Hazırda vahid oxucu bileti üzrə 11 minə yaxın oxucumuz var. Onlardan yalnız 8271 nəfəri tələbədir. Kitabxana nəzdində həmçinin müəllimlər üçün ayrıca oxu zalı və elmi ədəbiyyat fondu fəaliyyət göstəir ki, bu şöbələr müəllim heyəti üzvlərinin və tibb sahəsi üzrə tədqiqat aparan mütəxəssislərin işinə çox yarayır".

ATU-nun əsaslı kitabxanasında unikal bir layihə də fəaliyyət göstərir. Belə ki, oxucular üçün yaradılmış virtual oxu zalında onlar dünyanın ən tanınmış kitabxanalarında olan ədəbiyyata çıxış əldə etmiş olurlar: "Kitabxananın dünya informasiya məkanına daxil olmasını, müvafiq dünya standartlarına uyğun elektron formaya keçidini təmin etmək, elektron kataloqların yaradılması və cəmiyyətin inkişafına birbaşa təsir göstərən elektron mənbələrə çıxışı təmin etmək məqsədilə 2010-cu ildə "İrbis 64" adlı kitabxana layihəsi almışıq. Artıq virtual oxu zalımızda 9 kompüter fəaliyyət göstərir. Oxucular gündə 1 saatdan çox olmayaraq, internet vasitəsilə istədikləri məlumatı əldə edə bilirlər".

Qeyd edək ki, ATU-nun kitabxanası hər gün saat 9:00-dan 21:30-dək işləyir. Şənbə günləri oxu zalları 20:30-dək açıq olur. Oxucuların xidmətində 58 nəfər işçidən ibrət peşəkar heyət dayanır.

**Bu testi hesablayan proqram yalnız ATU-nun Tədris Cərrahiyyə Klinikasında mövcuddur .**

İstənilən tibb müəssisəsi, klinikalarda müasir laboratoriyaların mövcudluğu əsas şərtlərdən biridir. Məhz modern tibbi avadanlıq və peşəkar kadrlar əhaliyə tibbi xidmətin yüksək səviyyədə göstərilməsinə imkan yaradır.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında bu baxımdan – şərait yaradılıb. Belə ki, hazırda klinikada çoxprofilli laboratoriya fəaliyyət göstərir. Bu haqda laboratoriyanın müdiri, tibb üzrə fəlsəfə doktoru Yavər Hacısoy məlumat verib. Onun sözlərinə görə, ATU-nun Tədris Cərrahiyyə Klinikasının laboratoriyasında bütün növ – biokimyəvi, hematoloji, immunoloji, bakterioloji, molekulyar-genetik analizlər aparılır:

"Ümumiyyətlə, laboratoriyamız Almaniya, Yaponiya və Amerika kimi dövlətlərin istehsalı olan və dünyada referans olaraq qəbul olunmuş cihaz və avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriya personalının hər biri isə peşəkar, xaricdə təhsil almış mütəxəssislərdir. Çünki laboratoriyanın təchizatı önəmli olduğ kimi, nəticələri qiymətləndirən həkimlərin bilik və bacarıqları da əhəmiyyət daşıyır. Bütün bunlarla yanaşı, laboratoriyamızda həm daxili, həm də xarici keyfiyyətə nəzarət (kontrol) sistemlərindən istifadə olunur. Sivil laboratoriyalarda bu mütləqdir. Bunu təəssüf hissi ilə qeyd etməliyəm ki, Azərbaycanda bu cür nəzarət sistemləri ilə işləyən laboratoriyalar barmaq sayını keçməyəcək qədər azdır.

# "Hamiləlik zamanı daun sindromunu göstərən test yalnız bizim klinikada aparılır"



Bu kontrol sistemləri ticari firmalar tərəfindən istehsal olunur, biz isə onların nümayəndəlikləri vasitəsi ilə əldə edirik.

**Daxili kontrol dedikdə nə başa düşülür?**

Belə ki, aldığımız kontrollar ilə birlikdə instruksiyaları gətirilir və kontrolun içərisində ölçüləcək elementin miqdarı məlumdur. Məsələn, instruksiyada qeyd olunur ki, kontrolun içərisində qlükoza (şəkər) 80 mg/dL olmalıdır. Bizim laboratoriyamızda səhər işə başlamadan öncə bütün bölmələr üzrə ən azı bir səviyyədə kontrollar qoyulur. Əgər kontrollarımızın nəticəsi istənilən səviyyədədirsə, ondan sonra pasiyentlərin nümunələri işlənilir. Yəni əgər içərisində qlükozanın (şəkər) miqdarı 80 mg/dL olan kontrolun nəticəsini cihaz 80 və ya ona yaxın rəqəm verirsə, deməli işimiz normaldır, xəstələrin nümunələrini də rahatlıqla, güvənərək işləyə bilərik. Onu da qeyd edim ki, bəzən bu proses gün ərzində bir neçə dəfə təkrar olunur.

**Xarici kontrol nədir?**

Xarici kontrol sistemində isə anlaşdığımız qurum ayda bir dəfə bizə içərisində işlənəcək testlərin dəyərlərini bilmədiyimiz maye (bəzən toz halında) göndərir. Yəni bu kontrolun içərisində, məsələn, qlükozanın miqdarı bizə məlum deyil. Göndərilmiş kontrollar laboratoriyadakı müvafiq bölmə və cihazlarda işləndikdən sonra, qurumun internet səhifəsində bizim üçün xüsusi açılmış pəncərələrə daxil edilir. Təxminən 7-10 gün sonra nəticələr elan olunur. Bu zaman nəticəmiz ideal dəyərə nə dərəcədə yaxındır, xarici nəzarət sistemlərinə qoşulmuş laboratoriyalar arasında yerimiz və s. bildirilir. Onu da qeyd edim ki, biz bu məqsədlə Türkiyə Cümhuriyyətində olan Klinik Biokimya Uzmanları Dərnəyinin xarici kontrol sistemlərinə qoşulmuşuq. Və bura bir neçə ölkədən yüzlərlə laboratoriya qoşulur.

Aprel ayında isə laboratoriyamızda daha bir yenilik etmişik. Belə ki, Azərbaycanda ilk dəfə Almaniyanın Siemens şirkətinə məxsus lisenziyalı "Prisca" proqramı ilə təmin olunmuşdur.

**Bu nə üçün lazımdır?**

Hamilə qadınlarda gələcək övladın bəzi genetik xəstəliklərlə (Down, Trisomiya 18 və s.) doğulma ehtimalını araşdırmaq üçün 2-li, 3-lü və 4-lü tarama analizləri olunur. Əksər sivil ölkələrdə bütün hamilə qadınlar bu analizlərin ən azı birindən keçirlər. ATU-nun TCK-nın laboratoriyasında olan mövcud cihazlar (Siemens Immulite XP2000) və yeni təmin olunmuş proqram vasitəsi ilə artıq bu analizlər özümüzdə aparılır. Indiyə qədər bu analizlər Türkiyə Cümhuriyyətində olan laboratoriyalara göndərlilirdi. Artıq bir neçə klinika sırf bu analizlər üçün bizimlə əməkdaşlığa başlamışdır. Getdikcə də digər klinika və laboratoriyaların da bu analizləri digər respublikalara deyil, bizim klinikanın laboratoriyasına göndərəcəyini düşünürük.

Laboratoriya müdirinin sözlərinə görə, İkili tarama hamiləliyin 11-14-cü həftələrində aparılır. Bu zaman qanda bəzi hormonlar yoxlanılır. Həmin gün ana mütləq ultrasəs müayinəsindən də keçir və dölə aid bəzi ölçülər götürülür. Sonda bu dəyərlər başqa "priska" proqramına daxil edilir və gələcək övladın genetik xəstəlik ilə doğulma ehtimalı hesablanılır. Y.Hacısoy deyir ki, bu proqram hazırda yalnız ATU-nun Tədris Cərrahiyyə Klinikasında var: "Bu proqramın köməyilə qeyd etdiyimiz kimi, Daun sindromu və bəzi genetik xəstəliklərlə bağlı risklər hamiləlik dövründə ortaya çıxarılır".

Həmsöhbətimiz Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Mərkəzi laboratoriyasında hər cür xəstəliklərlə bağlı dəqiq, düzgün analizlərin aparılmasına zəmanət verir.

ATU-nun mətbuat xidməti

# Tədris Cərrahiyyə Klinikasında Qalxanabənzər Vəzi Gününə həsr olunmuş pulsuz müayinə aksiyası keçirildi

**❍ Tədris Cərrahiyyə Klinikasının cərrah-endokrinoloqu Tibb üzrə fəlsəfə doktoru Azər Hümmətov: "Bu, bütün xərçəng xəstəliklərinin 1 %-ni təşkil edir"**

Gənclər arasında qalxanabənzər vəzi xəstəlikləri niyə artır?

Bütün dünyada mayın 25-i Qalxanabənzər Vəzi Günü kimi qeyd edilir. Azərbaycanda isə Ümumdünya Qalxanabənzər Vəzi Günü 2013-cü ildən etibarən qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd alimlərin, tibb işçilərinin və eyni zamanda ictimaiyyətin diqqətini qalxanabənzər vəzinin problemlərinə cəlb etməkdir.

Qalxanabənzər vəzi embrional dövrdən başlayaraq insanın həyatı boyu orqanizmin normal həyat fəaliyyətinin tənzimlənməsində xüsusi rol oynayır. ATU-nun Tədris Cərrahiyyə Klinikasının cərrah-endokrinoloqu, Tibb üzrə



fəlsəfə doktoru Azər Hümmətov deyir ki, qalxanabənzər vəzin patologiyaları ölkəmiz üçün çox aktual problemdir:

«Belə ki, bəzi dağ və dağətəyi regionlar (Naxçıvan MR, Şəki, Qax, Oğuz, Qəbələ,Zaqatala, Balakən və b.) endemik ur ocağı sayılır. Son zamanlar qalxanabənzər vəzin patologiyalarının rastgəlmə tezliyi artmaqdadır. Yod çatışmazlığı insan sağlamlığına təsir edən ciddi patoloji dəyişikliklərə səbəb olur: endemik ur, hipotireoz, cinsi yetişkənliyin ləngiməsi və aybaşı funksiyasının pozğunluqları, fertilliyin azalması, sonsuzluq, ginekoloji patologiyaların rastgəlmə tezliyinin yüksəlməsi, hamiləliyin və doğuşun gedişində ağırlaşmalar, tez-tez düşüklər və ölü doğuşlar, anadangəlmə anomaliyalar, fiziki və əqli inkişaf geriliyi baş verir".

Endokrinoloq Azər Hümmətovun sözlərinə görə, əhali arasında qalxanabənzər vəzin düyünlərinin rastgəlmə tezliyi xeyli artıb. Belə ki, ultrasəs müayinəsi zamanı yetkin əhali arasında 13-67% təşkil edib.

"Qalxanabənzər vəzin xərçəngi (bədxassəli şişi) nadir rast gəlsə də bütün xərçəng xəstəliklərinin 1%-ni təşkil edir. Tiroid düyünlərinin 5%-nin bədxassəli olduğu bilinməkdədir".

Onu da qeyd edək ki, ölkəmizdə tiroid düyünlərinin vaxtında aşkarlanması məqsədilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında " Dünya Qalxanabənzər vəzi günü" ilə əlaqədar ödənişsiz həkim konsultasiyası və qalxanabənzər vəzin ultrasəs müayinəsi aparılıb. Ultrasəs müayinəsi radioloqlar və həkim konsultasiyası isə I cərrahi xəstəliklər kafedrasının əməkdaşları tərəfindən icra edilib. A.Hümmətov bildirir ki, bir gün ərzində saat 09.00-dan 14.00-dək 32 xəstə müayinə olunub. Onlardan 2-sində "Təkrar-residiv düyünlü ur", 15 nəfərdə "Autoimmun tireoidit", 12 nəfərdə "Düyünlü ur" aşkarlanıb. Üç nəfərin isə tam sağlam olduğu bəlli olub. Düyünlü ur aşkarlanan 2 xəstədə isə ultrasəs müayinəsi zamanı düyündə"şübhəli" görüntü olduğundan, İncə iynə aspirasion biopsiyası aparılıb və götürülmüş material sitoloji müayinəyə göndərilib. USM-lə Autoimmun tireoiditə uygün görüntüsü olan xəstələrdən TSH və anti-TPO analizi yoxlanılıb. Diaqnozu təsdiq olunmuş 10 hipotireozlu xəstəyə müvafiq müalicə təyin edilib və həmin xəstələr polinklinik tərəfindən nəzarətə alınıb. Endokrinoloq bildirir ki, bu kampaniyadan yararlanan vətəndaşlar Klinikanın rəhbərliyinə öz minnətdarlığını bildirdilər.

# Professor İsfəndiyar İsmayılov Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin sədri seçilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Azərbaycan Respublikası Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin təsis yığıncağı keçirilib.**



Tədbirdə çıxış edən I daxili xəstəliklər və reanimatologiya kafedrasının müdiri, professor İsfəndiyar İsmayılov cəmiyyət haqqında məlumat verib.

O, bildirib ki, hələ 1976-ci ildə belə bir cəmiyyət "Azərbaycan SSR Anestezioloqlar və Reanimatoloqlar Elmi Cəmiyyəti" adı altında fəaliyyət göstərirdi: "Bu cəmiyyət bizim müəllimimiz, professor Abbas Axunbəyli tərəfindən yaradılmışdı. Uzun illər cəmiyyət işini yüksək səviyyədə davam etdirdi. Səhiyyə Nazirliyindən də qeydiyyatdan keçmişdi. A.Axunbəylinin səhhətində yaranan problemlərlə əlaqədar və onun haqq dünyasına qovuşmasından sonra cəmiyyətin fəaliyyətində geriləmə müşahidə edildi və fəaliyyəti dayandı. 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni tələblərə uyğun olaraq cəmiyyətlər öz fəaliyyətlərini yenidən qurmalı, o cümlədən Ədliyyə Nazirliyində qeydiyyata alınmalı, yəni yenilənməli idi".

Professor qeyd edib ki, artıq bu istiqamətdə zəruri addımlar atılıb, cəmiyyət yeni adda və yeni tərkibdə qeydiyyata düşməklə işini davam etdirəcək: "Biz köhnə cəmiyyəti yeni adla təsis etdik və "Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyəti" adlandırdıq. 15 nəfərdən ibarət idarə heyəti də seçdik. İdarə heyətinin içərisindən sədr seçilməli idi. Bu cəmiyyətə mənim sədrliyim təklif edildi. Həm də məlum oldu ki, onların əvvəlcədən də keçirdiyi səsverməyə əsasən, məni cəmiyyətin sədri kimi görmək istəyiblər. Bu etimaddan dolayı mən də öz kolleqalarıma minnətdarlığımı bildirirəm".

İ.İsmayılov onu da vurğulayıb ki, cəmiyyətin əsas məqsədi ölkəmizdə ixtisasımıza aid aktual olan tibbi problemləri qabartmaq və onun həllinə nail olmaqdır: "İşçi qruplara ölkəmizdə fəaliyyət göstərən böyük tibb mərkəzlərinin (ATU-nun Tədris Terapevtik və Cərrahiyyə klinikaları, Elmi Cərrahiyyə Mərkəzi, Milli Onkologiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanası, Mərkəzi Klinik Xəstəxanası, Respublika Klinik Xəstəxanası və digərləri) aparıcı mütəxəssisləri cəlb olunub. Həmçinin, gənclərlə də mütəmadi olaraq işləyəcəyik, çünki müasirləşən dünyamızda bəzi yenilikləri gənclərdən öyrənirik. Bu baxımdan yeniliklər gətirmək, onların tətbiqinə nail olmaq cəmiyyətin əsas hədəflərindən biri olacaq".

# Tədris Terapevtik Klinikada növbəti xəstə təhlilləri aparılıb

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında iki xəstə ilə bağlı klinik müzakirə aparılıb.



Müzakirələrin əvvəlində çıxış edən direktorun müalicə işləri üzrə müavini Adil Nuriyev silsilə şəklində aparılan klinik təhlillərin ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən izlənildiyini və təqdirəlayiq hal kimi qiymətləndirdiyini bildirib.

Çünki aparılan bu təhlillərin gələcəyin həkimləri olacaq tələbələrin, həmçinin rezidentlərin tibbi bilik səviyyəsinin yüksəldilməsində müsbət rol oynayacaq.

Klinik müzakirədə çıxış edən kardioloq Fərid Əliyev mədəcik taxikardiyasının müalicəsində yeniliklərdən söz açıb və bu yaxınlarda çox ağır vəziyyətdə klinikaya yerləşdirilən 56 yaşlı xəstədə bu proseduru tətbiq etdiklərini bildirib.



F.Əliyev qeyd edib ki, xəstə uzun illərdir defibilyator şoklaması səbəbilə onun nəzarətindədir və 2006-cı ildən bu yana həmin xəstəyə müxtəlif müalicə prosedurları tətbiq edilib: "Xəstə çox ağır vəziyyətdə olduğuna görə, onun yaşamaq şansı da çox az idi. Bu məqamda biz tam ürək denervasiyasi icra etmək qərarına gəldik. Ablasiya icra edilən sahələrdəki (sol posterior fassikul, his dəstəsinin sağ ayaqcığı, his dəstəsi) tətbiq edilmədən sonra taxikardiya və ventrikulyar ektopik ocaqlar sonlandırıldı. Bu, His dəstəsinin ablasiyası icra edildikdən sonra əldə edildi və biz bunu "Tam Ürək denervasiyası" adlandırdıq".

Daha sonra moderatorluğu professor Mehman Ağayevə məxsus 78 yaşlı – 30 ildi şəkərli diabetdən əziyyət çəkən xəstə ilə bağlı Şəhla İsmayılova toplantı iştirakçılarına məlumat verib.

O bildirib ki, xəstə klinikaya təngnəfəslik, sidik ifrazının azalması, boğulma və ağciyər xəstəliyi ilə daxil olmuşdu: "5 ildi xəstədir və xəstəliyini 30 ildir əziyyət çəkdiyi şəkərli diabetlə əlaqələndirirdi. Klinikaya gəlmə səbəbi də ödem sindromu idi. Biz bu xəstəni müayinə etdikdən sonra onda interstisial ağciyər xəstəliyinin olmasını da aşkar etdik. Hazırda xəstənin vəziyyəti normaldır və aparılan müayinələr onda müsbət yöndə irəliləyişlərə səbəb olub".

Klinik müzakirə professor-həkim heyətinin və rezidentlərin müzakirəsi ilə davam etdirilib.

ATU-nun mətbuat xidməti

# Ortopedik stomatologiya kafedrasında tələbələr və rezidentlər üçün seminarlar keçirilir

• Azərbaycan Tibb Universitetinin Ortopedik stomatologiya kafedrasında tələbələr və rezidentlər üçün seminarlar keçirilir.



Ortopedik stomatologiya kafedrasının müdiri, dosent Nazim Pənahov tədbir iştirakçılarına seminarın mahiyyətindən bəhs edərək bildirdi ki, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin göstərişinə əsasən, tələbələr və rezidentlər üçün nəzərdə tutulan seminarlar qeyri-iş günlərində təşkil edilir: “Seminarlara ortopedik stomatologiya sahəsinin tanınmış mütəxəssislərini cəlb edirik. Təxminən 2 saat davam edən tədbirdə I və III kurs rezidentləri və yuxarı kurs tələbələri iştirak edirlər və onların sualları mütəxəssislərimiz tərəfindən cavablandırılır. Bu sayca ikinci seminarımızdı. Tədbiri davamlı olaraq hər ay keçirməyi planlaşdırırıq. İlk seminarda ”Stomatologiyada 3d planlama və tomoqrafiya” mövzusunu seçmişdik. Seminarı ATU-nun Ortopedik stomatologiya kafedrasının doktorantı Rüfət Hüseynov aparmışdı və çox müsbət qarşılanmışdı”.

İkinci seminar ATU-nun Ortopedik stomatologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Aslan Məmmədova həvalə edilib. O, “Diş ətrafı bioloji enin formalaşması – anatomiyası və əhəmiyyəti” mövzusunda məruzə ilə çıxış edib. Aslan Məmmədovun sözlərinə görə, seminarda müzakirə olunan mövzu dərs proqramında yoxdur, lakin çox önəmli bir mövzudur: “Bizim məqsədimiz ondan ibarətdir ki, mümkün qədər həm informativ tərəfdən,




həm də kliniki təcrübə baxımından təcrübəmizi tələbələrlə bölüşək. Bu gün təqdim etdiyim mövzu parodontologiyadan bəhs edir və dünya stomatologiyasında olan əsas problemləri əhatə edir. Bu mövzu dərsliklərə salınmayıb, bu baxımdan da tələbələrin bu haqda öyrənməsi üçün böyük şans yaradılıb”.

Qeyd edək ki, A.Məmmədov Almaniyada sözügedən mövzu üzrə ixtisaslaşma keçib. 2007-2010-cu illər ərzində Almaniyada Münhen IPI institunun parodontologiya üzrə ixtisaslaşma proqramını bitirib. 2013-2015-ci illər ərzində Avstriyada Vyana Tibb Universitetinin Parodontologiya kafedrasında elmi araşdırmalar və parodontologiya ixtisası üzrə təhsil alıb. 2014-cü ildən Avstriya Parodontologiya Cəmiyyətinin üzvüdür.

# NAXÇIVAN DUZUNU DÜNYAYA TANIDAN ALİM

◆ **Bu il aprelin 27-dən mayın 1-dək Nyu-Yorkda dünya allerqoloqlarının tanınmış simalarının iştirakı ilə Ümumdünya Tibbdə Reabilitasiya və İmmunoreabilitasiya Konqresi və X Ümumdünya İmmunopatologiya təşkilatı tərəfindən allergiya, astma, XOAX üzrə illik Beynəlxalq Forum keçirilib.**

Tədbirdə MDB, Amerika, Asiya, Avropa və Afrikanın 50-dən çox ölkəsindən nümayəndələr iştirak edib. Mühazirəyə Dünya allerqoloqlar təşkilatının prezidenti Mario Sançez Borqes, İtaliyadan “İnterastma” Beynəlxalq Cəmiyyətinin həmsədri Valter Kanonika, Amerika Allerqoloqlar-İmmunoloqlar Akademiyasının fəxri üzvü Alen Kaplan, Amerika Allerqoloqlar-İmmunoloqlar Akademiyasının eks-prezidenti Bryan Martin, Vyana Tibb Universitetinin allergiya tədqiqatı və patofiziologiya, immunopatologiya şöbəsinin müdiri Rudolf Valenta, Danimarkadan Avropa Respirator Cəmiyyətinin eks-prezidenti Ronald Dahl və digər tanınmış simalar iştirak edib. Konfrans iştirakçıları əsasən allerqoloji tədqiqatların əsas nəticələrini, kliniki praktikada onların tətbiqini nəzərdən keçirib, allerqologiya və immunologiya sahəsində müxtəlif kliniki vəziyyətlərlə bağlı aktual məsələlər müzakirə olunub.




Respublikamızı bu mötəbər tədbirdə ATU-nun “Klinik Allerqolqiya və immunologiya” kursunun rəhbəri, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva və adıçəkilən kursun dosenti Aynur Ağayeva yüksək səviyyədə təmsil ediblər.

Forumun poster müzakirələri çərçivəsində professor L.Allahverdiyeva respirator allerqopatologiya sahəsində Nailə Əfəndiyeva ilə həmmüəllifi olduğu “Atopik bronxial astmalı uşaq və yeniyetmələrdə speleoterapiyanın effektivliyi” və Nazilə Ələkbərova ilə həmmüəllif olduğu “Allergik rinit və bronxial astma olan uşaqlarda sublinqval allergenspesifik immunoterapiya” adlı məruzələri təqdim edib.

Təqdim edilmiş poster məruzələr müxtəlif ölkə iştirakçıları və eləcə də komissiya üzvləri arasında böyük marağa səbəb olub. Belə ki, L.Allahverdiyeva və N.Ələkbərovanın “Allergik rinit və bronxial astma olan uşaqlarda sublinqval allergenspesifik immunoterapiya” adlı məruzəsinin elmi əhəmiyyəti yüksək qiymətləndirilərək I yerə layiq görülüb və sertifikat alıb.

Bundan başqa, L.Allahverdiyeva dünyanın müxtəlif ölkələrindən iştirak edən həkim və alimləri Naxçıvanda yerləşən duz mağaralarının müalicəvi, reabilitasiya imkanları və speleoterapiya üstünlükləri ilə daha yaxından tanış etmək məqsədilə forumda plakatlar, broşürlər, məqalələrdən ibarət ekspozisiya sərgiləyib və qısa film nümayiş etdirib. Alimimizin etdiyi təqdimat İspaniya, Amerika, Filippin, Rumıniya və digər ölkələrin həkimlərində geniş maraq oyadıb və onlar bilavasitə tənəffüs sağlamlığının bu təbii mənbəyi ilə tanış olmaq istədiklərini qeyd ediblər.

Həmçinin professor L.Allahverdiyeva Forumun plenar iclaslarından birinə də sədrlik edib.

Lalə xanım tədbir barədə təəssüratlarını bizimlə bölüşərək bildirib ki, Forum yüksək elmi səviyyədə keçirildi, bu, praktiki və nəzəri allerqologiya sahəsində mövcud elmi bilik mübadiləsi üçün böyük əhəmiyyət kəsb etdi: “Doğrudur, müalicəvi duz mağaraları istər Avropanın, istərsə də MDB-nin bir sıra ölkələrində mövcuddur. Amma Naxçıvan mağaralarındakı duzda olan natrium və xlor ionları digər ölkələrdəkinə nisbətən tərkibin 90 faizdən çoxunu təşkil edir. Bu da müalicənin effektliyini daha da artırır. Amma digər ölkələrdə duzun tərkibində kalsium ionları daha çoxdur. Naxçıvan mağaralarının üstün cəhətlərindən biri də ondan ibarətdir ki, mağaralar Avropadakılara nisbətən üfiqi yerləşir. Havanın temperaturu sabitdir, burada rütubət və havanın axını normaldır”.

L.Allahverdiyeva Naxçıvan duzu ilə bağlı tədqiqat işlərinin davam etdirildiyini diqqətimizə çatırmaqla yanaşı, pasiyentlərə yüksək xidmətin təşkilindən də söhbət açıb. Xəstələrin düzgün müayinəsi üçün İsveçdən dünyanın məşhur tədqiqat mərkəzlərində istifadə olunan “Nioxmino” aparatının gətirildiyini qeyd edib.

Baş laborant Nailə Əfəndiyeva bu aparatın olduqca həssas olduğunu, xəstələrdə bir sıra müayinələrin düzgün aparıldığını, hətta nəfəsdə azot-2 oksidinin səviyyəsinin belə dəqiq ölçüldüyünü bildirib. Bir sözlə, onlara müraciət edən xəstələrin müalicə və müayinələrinin nəticələrindən məmnun qaldığını xüsusilə vurğulayıb.

Qabil ABDULLAYEV

# Tibbi profilaktika fakültəsində yeni növ treyninqlər keçirilir

**Aprelin ilk həftəsindən başlayaraq, ATU-nun tibbi profilaktika fakültəsində Obyektiv Strukturlaşdırılmış Praktik İmtahan (OSPİ) üsulu ilə treyninqlər aparılır.**

Tibbi profilaktika fakültəsinin dekanı, dosent Anar Ağayev OSPİ üsulunun yenilik olduğunu qeyd edib: “Bu üsulla ilk dəfədir ki, fakültəmizdə imtahan olacaq. Tələbələrdə praktiki bacarıqlar əsasən peşə vərdişlərinin formalaşması ilə müşayiət olunur. Tələbələr təhsil müddətində təcrübi bacarıqlara da yiyələnməlidirlər. Nəzəri biliklərin



təcrübi bacarıqlara inteqrasiyası tibb sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün müstəsna əhəmiyyət kəsb edir. Məhz bu baxımdan buraxılış kurslarımıza şamil olunan bu treyninqləri tələbələr çox bəyənib, razılıq edirlər”.

Bacarıqların qiymətləndirilməsi üçün ən yaxşı üsullardan biri də son illərdə dünyanın əksər ölkələrində geniş tətbiq edilən, müasir tələblərə cavab verən Obyektiv Strukturlaşdırılmış Praktik İmtahan (OSPİ) adlandırılan imtahan üsuludur. Bu üsul tələbələrin nəzəri və təcrübi bacarıqlarını eyni sınaqla ədalətli qiymətləndirməyə imkan verir.

Qeyd edək ki, fakültədəki treyninqlər dekan Anar Ağayev və ATU-nun təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri Akif Qurbanovun nəzarəti altında keçirilib.

ATU-nun mətbuat xidməti

Xatırlananlar

# SƏMİMİ İNSAN, TANINMIŞ KLİNİSİST VƏ NÜMUNƏVİ ALİM

**Alim olub, elmin nuru və ziyası ilə ətrafdakıları işıqlandırmaq, həmin paydan özündən sonrakı nəsillərə töhfə vermək hər kəsə nəsib olan bir xoşbəxtlik deyil. Bu cür ali məqam demək olar ki, tək-tək insanlara nəsib olur. Tərəddüt etmədən, belə nuru və ziyası ilə ətrafına işıq saçan ziyalılarımızdan biri kimi gözəl alim, mərhum Yadiyar Yunusovun adını çəkə bilərik. Onu görənlər, bir dəfə ünsiyyətdə olanlar, inanmırıq ki, heç zaman bu gözəl alimin hikmətli sözlərini, dəyərli məsləhətlərini və nurlu çöhrəsini unutmuş olsunlar.**

Azərbaycanda Nevrologiya məktəbinin yaradılması və inkişafında böyük xidmətləri olan professor Yunusov Yadiyar Maqsud oğlu 1927-ci il yanvarın 3-də Qəbələ rayonunun Böyük Pirallı kəndində anadan olub. O, orta məktəbi bitirəndən sonra 1943-cü ildə N.Nərimanov adına Azrbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olub. 1948-ci ildə institutu fərqlənmə diplomu ilə başa vurduqdan sonra elə həmin ildən etibarən farmokologiya kafedrasında baş laborant vəzifəsində çalışıb. Bakı şəhər komsomol komitəsinin birinci katibi işləyib.

1950-1951-ci illərdə Xaldan rayon Nemətabad kənd tibb məntəqəsinin müdiri vəzifəsində işləyib. Onun həyatında bundan sonra yeni vəzifə pillələrinə çəkilmə dövrü başlayıb. Belə ki, 1951-1952-ci ildə Xaçmaz rayon Borispol kəndində tibb məntəqəsnin şöbə müdiri, sonra isə rayon poliklinikasının baş həkimi vəzifəsində çalışıb. 1953-cü ildə isə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutuntnda nevroloji kurs keçib. Bundan sonra 1954-cü ildə Xaçmaz Rayon Xəstəxanasının həkim-nevroloqu vəzifəsinə təyin olunub. Bir müddət sonra o, yenidən bitirdiyi Tibb İnstitutuna qayıdıb və sinir xəstəlikləri kafedrasında klinik ordinator vəzifəsində işləməyə başlayıb.

Yadiyar müəllim hansı vəzifədə çalışıbsa, həmişə işinin öhdəsindən ləyaqət və bacarıqla gəlib. Onun bu qabiliyyəti həmişə kollektivin və onu tanıyanların sevimlisinə, yaxın dostuna çevirib. Səmimi və iradəli olduğu üçün hamı ondan bir nümunə götürməyə, elmi yanaşmalarını və araşdırmalarını onun kimi etməyə çalışıb.

1957-ci ildə Yadiyar müəllim kliniki ordinaturanı müvəffəqiyyətlə bitirərək sinir xəstəlikləri kafedrasında aspiranturaya daxil olub. Aspirant olduğu müddətdə (1957-1960) o, bel quruması (tabes dorsalis - neyrosifilis) xəstəliyi ilə bağlı elmi araşdırmalar aparıb. 1960-1965-ci illərdə sinir xəstəlikləri kafedrasının assistenti olan Y.Yunusov həmçinin ictimai işlərin öhdəsindən də layiqincə gəlirdi. O, həmin illərdə institutun həmkarlar təşkilatına da rəhbərlik edib. 1961-ci ildən 1963-cü ilədək isə stomatologiya fakültəsinin dekanı vəzifəsində çalışıb. Ardıcıl araşdırmalardan sonra, nəhayət 1961-ci ildə Tiflisdə "Azərbaycanda bel qurumasına aid materialların kliniki xarakteristikası" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. Elə həmin il səhiyyədə göstərdiyi xidmətlərə görə "Səhiyyə əlaçısı" fəxri adına layiq görülüb. 1967-ci ildə isə kafedranın dosent olub.

1967-ci ildə Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda neyrocərrahiyyə xəstələrin diaqnostikası, o cümlədən 1968-ci ildə uşaq əsəb-sinir xəstəlikləri ilə bağlı seminar və kurslarda iştirak edib.

10 il müddətində apardığı gərgin araşdırmalar öz bəhrəsini verə bilib. Belə ki, 1970-ci ildə "Qapalı kəllə-beyin travmasında beyin sütununun retikulyar formasiyasının funksional və struktur dəyişiklikləri" mövzusunda doktorluk dissertasiyasını müdafiə edərək, tibb elmləri doktoru olub.

Tibb elmləri doktoru Y.Yunusov 1972-ci ildə Azərbaycan Tibb İnstitutun qərarı ilə sinir xəstəlikləri kafedrasının professor vəzifəsinə seçilib.

1976-cı ildə isə Seçenov adına Moskva Tibb İnstitutunda əsəb sistemləri ilə bağlı təcrübə kursu keçib.

1978-ci ilə isə ikinci ixtisasa yiyələnib. O dövr üçün dəbdə olan Marksizm-Leninizm İnstitutuna daxil olub və oranı fərqlənmə ilə bitirib. Peşəkarlığına, bilik, bacarıq və savadına görə bir neçə dəfə Səhiyyə Nazirliyinin fəxri fərmanları və diplomlarına layiq görülüb.

1971-ci ildən 1976-cı ilədək əsəb-sinir kafedrasında tədris hissə müdiri işləyib.

1975-ci ildə Tibb İnstitutunda Xalq Nəzrəti Komissiyasının üzvü olub.

Görkəmli alim bir çox elmi məqalələrin, ixtira və səmərələşdirici təkliflərin müəllifi olub. Onun apadığı araşdırmalar və tədqiqatlar əsasən nevrologiyanın bir çox aspeklərinə həsr olunub. O, həmçinin baş-beyin damar pozulmaları, baş-beyin iltihabının neyroinfeksiya, neyrotravma və epilepsiya xəstəliklərinə aid elmi araşdırmalar aparıb. Y.Yunusov ömrünün ən məhsuldar çağında, 1983-cü ildə 56



yaşında dünyasını dəyişib. O, bəlkə də bir müddət yaşasaydı, nəinki Azərbaycanımızın tibb sahəsi üçün, ümumiyyətlə dünya səhiyyəsi üçün gərəkli töhfələrini verə bilərdi. Amma çox təəssüflər olsun ki, vaxtsız əcəl Yadiyar müəllimə bu məqama çatmağa macal vermədi.

İnanırıq ki, onunla ünsiyyətdə olan hər kəsin qəlbini fəth etdən bu fədəkar tibb işçisi, gözəl ailə başçısı, ən başlıcası isə böyük alim və bənzərsiz insan əzizlərinin, onu sevənlərin, dostlarının, tələbələrinin qəlbində həmişə yaşayacaqdır.

**Fərid MƏMMƏDBƏYOV,**
*Nevrologiya kafedrası t.e.n., dosent*
**Namiq XƏLİLOV,**
*Uşaq cərrahiyyə kafedrasının əməkdaşı*

# Xalq şairi məhəbbətlə xatırlandı

**◆ Mayın 19-da Azərbaycan dili kafedrasında xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına həsr olunmuş tədbir keçirildi. İştirakçıları salamlayan tədbirin aparıcıları 169A qrupunun tələbələri S. Əliyeva, B.Ağayeva B.Vahabzadənin bu misraları ilə tədbiri açıq elan etdilər:**

*Yaz ayları çağıldayan selmisən?*
*Bu dünyanı oyuncaqmı bilmisən?*
*Həyat səni güldürəndə gülmüsən,*
*Hünərin var ağladanda gül görüm!*





Sonra Azərbaycan dili kafedrasının müdiri, dosent Akif Miriyev öz müəlliminin qeyri-adi insanlığından, fəlsəfi şair kimi Azərbaycan ədəbiyyatında tutduğu mövqeyindən, xalqa arxa-dayaq olmağından, ictimai fəaliyyətindən söhbət açdı. O, xalqımızın mərhumiyyətlər və vaxtaşırı mənəvi və maddi soyqırımlara məruz qalmış keşməkəşli tarixinə odlu-alovlu vətənpərvərlik duyğuları ilə yanaşan böyük şairin yaradıcılığının indi də gənclər üçün nə qədər vacib əsərlər olduğundan söhbət açdı. O, bildirdi ki, sovet dövründə anti-sovet ideyalarına görə həmişə mənəvi və fiziki təzyiqlərlə üzləşən böyük şair, müstəqillik uğrunda mübarizədə həyatını təhlükədə qoymaqdan belə çəkinməmişdi.

Çıxışını Bəxtiyar Vahabzadənin "Mən haqq-hesab istəyirəm gecələr gündüzümdən" misrası ilə başlayan dosent İsmət Ağayeva şairin yaradıcılığında xüsusi yer tutan "Gülüstan" poemasının Azərbaycan ədəbiyyatındakı böyük əhəmiyyətini nəzərə çatdıraraq ərazimizin ikiyə bölünməsinə dair əsil şair fikrinin düşüncə tərzindən danışıb. İ.Ağayeva universitetdə 1976-cı ildə B.Vahabzadə ilə bağlı görüş gecəsini xatırladaraq həmin görüşün bu gün də yaddaşlarda dərin iz buraxdığını dedi və şairin kafedraya öz imzası ilə bağışladığı bir şeirini oxudu.

Sonra Bəxtiyar Vahabzadəyə həsr olunmuş "Bu dünyadan bir Bəxtiyar keçdi" filmi nümayiş olundu və mərhum şairin öz səsi ilə "Hara gedir sabahımız" şeiri səsləndirildi.

Tədbirdə hazırlıq bölməsinin 10-cu qrup dinləyicisi Ərəstun Mədədi "Ana dili" şeirini xüsusi məharətlə söylədi. 171[a] qrupundan G.Nəsirzadə, 169[a] qrupundan S.Şirinova, K.Behbudova, 167[a] qrupundan N.Şıxəliyeva, 162[a] qrupundan N.Musalı və Ə.Rzayeva, 171[b] qrupundan B.Axundova şairin yaradıcılığından nümunələri diqqətə çatdırdılar.

Hazırlıq şöbəsinin dinləyicisi Abdulkadir Özdikər və tələbə N.Şirinova şairin sözlərinə yazılmış mahnıları ifa etdilər.

Xatirə tədbirində B.Vahabzadə ilə yaxın münasibətdə olmuş mühəndis - bəstəkar Taryel Məmmədov onunla bağlı xatirələrini danışdı, tarda ifa etdiyi melodiyalarla iştirakçılara xoş anlar bağışladı. Tədbirin ən təsirli anlarından biri də ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti M.Məhərrəmovun şairin "Allah" şeirini dərin hiss və duyğu ilə söyləməsi oldu.

B.Vahabzadənin şəxsiyyətinə və yaradıcılığına yaxından bələd olan epidemiologiya kafedrasının müdiri şair təbiətli professor İbadulla Ağayevin çıxışı iştirakçıların hərarətli alqışları ilə qarşılandı.

Tədbirdə tələbələr, hazırlıq şöbəsinin dinləyiciləri, müəllimlər və "Təbib" qəzetinin baş redaktoru, şair-publisist, əməkdar jurnalist Eldar İsmayıl iştirak ediblər.

**İ.Hacıyeva,**
*kafedranın kabinet müdiri*

# Qalaktoreya nədir? - Həkim qadınlarda rast gəlinən belə məqamlara aydınlıq gətirir



**ATU-nun Tədris Terapevtik Klinikasının aparıcı həkimi, mammoloq-radioloq Günel Qəmbərova son dövrlər süd vəzi giləsindən süd rəngli mayenin gəlmə şikayəti ilə daxil olan pasientlərin artdığını bildirir. Bu tibbi dildə "Qalaktoreya" adlanır .**

Qalakteroya haqqında məlumat verən, həkim qadınların bu kimi hallarda diqqətli olmalarını tövsiyə edir.

G.Qəmbərova bildirib ki, belə ifrazat birmənalı qarşılanmamalı və tam detallı müayinə olunmalıdır: "Qalaktoreya-qeyri-laktasion periodda, yəni süd vermə periodundan kənar vaxtda giləden gələn süddür. Bunun səbəbi polietioplojidir. Əgər qadının sinə alt paltarı mütəmadi olaraq islanırsa, o, gecikmədən həkim-mammoloqa müraciət etməlidir. Bunun səbəbi hipofizdə olan adenoma ola bilər. Bu zaman qanda ilk öncə prolaktinin səviyyəsi təyin olunur və hipofizin kontrastlı MRT müayinəsi aparılır. Digər səbəb dofamin sintezini azaldan hər hansı bir preparat qəbulu ola bilər. Bu da medikamentoz qalaktoreya yarada bilər. Həddən çox istifadə olunan estrogen tərkibli oral kontraseptiklər prolaktin sintezini qaldıra bilər və qalaktoreya yaranmış olar. Pasiendə hipotireoz varsa, qanda tiroliberin sintezi qalxar və bu da dofamin və prolaktin sekresiyasını stimulə edər və sonda qalaktoreya yaranmış olar".

# Şagirdlər alimin həyat – fəaliyyəti ilə tanış olublar

**Bu günlərdə Bakı şəhər Səbail rayonu 6 saylı (möhtərəm Prezidentimiz İlham Əliyevin oxuduğu məktəb) məktəbin 1[b] sinif rəhbəri Xuraman Şabani və şagirdləri Azərbaycanın görkəmli elm adamları arasında özünəməxsus yeri olan tanınmış alim, gözəl ziyalı, iqtisad elmləri doktoru, professor, AMEA-nin müxbir üzvi Aqil Əlirza oğlu Əliyevi xatirəsini anmaq üçün ATU-nun ictimai fənlər kafedrasında olublar.**





Balaca qonaqları səmimiyyətlə qarşılayan kafedranın müdiri, professor Qoşqar Əliyev qeyd edib ki, onların yaddaşında daim yaşayan Aqil Əliyev öz şərəfli və mənalı ömrünü Tibb Universitetinin əvvəllər siyasi iqtisadiyyat, sonralar isə ictimai fənlər kafedrasına həsr etmişdir. Aqil müəllimin xatirəsini əziz tutan kafedra əməkdaşları bu böyük alimin iş otağını muzey kimi hörmətlə qoruyub saxlayırlar.

Sonra qonaqlara Aqil Əliyevin həyat-yaradıcılığı, elmi-pedagoji və ictimai xidmətləri barədə məlumat verilib. Qeyd olunub ki, Aqil Əliyev 190-dan artıq elmi əsərin və 32 monoqrafiyanın müəllifi olmuşdur. Onun elmi-pedagoji kadrların hazırlamasına və iqtisadiyyat elminin inkişafına həsr edilmiş fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilərək "Əməkdar elm xadimi" adına layiq görülüb, "Qırmızı Əmək Bayrağı" və "Şöhrət" ordenləri, eləcə də bir çox fəxri fərmanlarla təltif edilib. Gələcəyimiz olan uşaqlara Aqil müəllimlə bağlı xatirələrini bölüşən Qoşqar Əliyev onun müqayisə olunmayan mənəvi böyüklüyündən söhbət açıb. Kafedranın dosenti Leyla Talışınskaya Aqil müəllimin və onun ətrafında olan şəxslərin stendlərdə yer alan foto- şəkillər barədə uşaqlara ətraflı məlumat verib.

Şagirdlərin Azərbaycan Tibb Universitetinə gəlişinin əsas məqsədi ölkəmizin inkişafında yaxından iştirak edən ziyalıları uşaqlarımıza tanıtmaq, onların dünyagörüşü və vətənpərvərlik hisslərini daha da zənginləşdirməkdən ibarətdir.

Qeyd edək ki, bu səyahətlərin təşəbbüskarı 6 nömrəli məktəbin direktoru Gülşən Orucova və balacaların sevimli müəllimi Xuraman Şabanidir. Uşaqlar bundan əvvəlki səyahətləri zamanı Tarix muzeyini, Şirvanşahlar sarayını və Üzeyir Hacıbəyovun ev muzeyini ziyarət edib, Milli Elmlər Akademiyasının məşhur alimlərinin həyat -fəaliyyətləri ilə tanış olublar.

**Ş.Əsədova**
**dosent**

# ƏHMƏDLİ GÜLNAZ TEYMUR QIZI

Tibbi fizika və informatika kafedrasına agır itki üz vermişdir. Kafedranın keçmiş əməkdaşı dosent Əhmədli Gülnaz Teymur qızı uzun sürən xəstəlikdən sonra mayın 19-da vəfat etmişdir.



Gülnaz xanım 1936-cı il aprelin 15-də Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olmuşdur. O, 1958-ci ildə S.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsinin fizika bölməsini bitirmiş və həmin ildən etibarən Azərbaycan Elmlər Akademiyasının Fizika institutunda elmi işçi vəzifəsində işləmişdir. 1960-cı ildə aspiranturaya daxil olmuş, 1964-cü ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. G.Əhmədli 1967-ci ildə Azərbaycan Tibb Universitetində müəllim, 1968-ci ildə baş müəllim, 1970-ci ildən 2016-cı ilə kimi dosent vəzifəsində çalışmışdır.

Gülnaz müəllimə 50 ilə yaxın işlədiyi müddətdə elmi-pedaqoji işdə xüsusi bacarığı ilə fərqlənmişdir. Onun oxuduğu mühazirələr və apardığı praktiki dərslər kafedra işçiləri və tələbələr tərəfindən yüksək qiymətləndirilmişdir. Respublikamızda və xaricdə 70-dən çox elmi məqaləsi çap olunub. Tələbələr üçün dərslik və dərs vəsaitinin həmmüəllifidir.

G.Əhmədliyə 2001-ci ildə Rusiya Tibbi-Texniki elmlər Akademiyasının Akademiki adı verilmişdir.

Gülnaz xanım bağışlamağı bacaran, başqalarının fikir və mülahizələrinə hörmətlə yanaşan xeyirxah insan idi. Ona kim müraciət edərdisə, bütün varlığı ilə çalışırdı ki, kömək etsin. Gülnaz xanımı onu tanıyanlara sevdirən məhz bu yüksək insani keyfiyyətlər olmuşdur.

Kollektivimizin sıralarında Gülnaz xanımın yoxluğu hamını kədərləndirir. Təəssüf ki, gözəl insan, savadlı alim, qayğıkeş ana olan Gülnaz müəlliməni tale bizdən ayıraraq, özünün əbədi haqq dünyasına qovusdurdu.

Dosent Gülnaz Əhmədlinin əziz xatirəsi həmkarlarının və tələbələrinin qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!!

***Tibbi fizika və informatika kafedrasının əməkdaşları***

# Tədris Terapevtik Klinikada növbəti xəstə təhlilləri aparılıb

Mayın 25-də Tədris Terapevtik Klinikada iki xəstə ilə bağlı növbəti klinik müzakirə aparılıb.



Direktorun müalicə işləri üzrə müavini Adil Nuriyev çıxış edərək bildirib ki, silsilə şəklində davam etdirilən xəstə təhlilləri həm tələbələr, həm də rezidentlər üçün mühüm əhəmiyyət kəsb edir.

Klinik müzakirədə moderatorluğu professor Surxay Musayevə məxsus ilk çıxışı uşaq kardio-revmatologiya şöbəsinin müdiri Sevda Məmmədova edib.

S.Məmmədova xəstə haqqında məlumat verərərək bildirib ki, 14 yaşlı uşaq bir neçə ay bundan öncə klinikaya çox ağır vəziyyətdə gətirilmişdi: "Klinikaya yüksək hərarət, öskürək, üzdə və aşağı ətarflarda şişkinlik, ürək nahiyəsində ağrı və s. şikayətlər ilə daxil olmuşdu. Bunlarla yanaşı təngnəfəslik və halsızlıq hallarını da müşahidə etdik.



Uşağın erkən inkişaf dövrü normal keçib və profilaktik peyvəndlərini təqvimə uyğun alıb. Aparılan müayinələr zamanı uşağa kəskin revmatik diaqnozu qoyduq. Konsultasiyalar təşkil olundu, kardioloq və nefroloqun baxışı keçirildi. Əvvəlcə biz uşağın əməliyyatla normal vəziyyətə dönə biləcəyini zənn edirdik, amma müayinələrdən sonra kəskin cərrahi göstərişə ehtiyac olmadığının şahidi olduq".

Aparılan müalicələrdən sonra uşağın vəziyyətinin yaxşılaşdığını deyən S.Məmmədova bundan sonra onun daima həkim nəzarətində olmasını məsləhət gördüklərini deyib.

Daha sonra moderatorluğu hematologiya şöbəsinin müdiri Valeh Hüseynova məxsus 38 yaşlı Xroniki Myelositar Leykemiya ilə daxil olan xəstə ilə bağlı Şəhla Şabanovanın çıxışı dinlənilib.

Ş. Şabanova bildirib ki, xəstə subfebril hərarət, halsızlıq, qarın nahiyyəsində dolğunluq və köp, təngnəfəslik şikayətləri ilə klinikaya müraciət edib.

Xəstəliyin simptomları haqqında məlumat verən həkim qeyd edib ki, burada əsasən halsızlıq, temperatur, gecə tərləməsi, çəkinin azalması və s. kimi hallar müşahidə edilir: "Xəstə daxil olarkən onda leykositoz, anemiya, perifrik yaxmada mieloid sıra artışı ilə yanaşı atipik hüceyrələri aşkar etdik. Müalicələrə başlanıldı və mərhələli şəkildə bu proseslər davam etdiriləcək".

Ş.Şabanova gələcəkdə xəstəyə sümük iliyi transplantasiyasını da həyata keçirmək zərurəti yarana biləcəyini deyib.

Klinik müzakirə həkim-professorlar və rezidentlərin müzakirəsi ilə yekunlaşıb.

# Tələbələrimiz beynəlxalq olimpiadada uğur qazandı

Mayın 19-20 tarixində Rusiyanın Stavropol şəhərində tibb universitetləri arasında "Asklepiy" beynəlxalq Olimpiadası baş tutub. Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə keçirilən yarışmada 15 komanda iştirak edib. İlkin tibbi yardımın göstərilməsi üzrə Olimpiadaya Rusiyanın müxtəlif tibb universitetləri ilə yanaşı, Çin və Azərbaycanın tibb universitetləri də qatılıb.




ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalovun sözlərinə görə, Azərbaycan Tibb Universiteti bu yarışmada "AMU Fires" komandası ilə iştirak edib: "Komandanın tərkibinə universitetin II, IV və V kurs tələbələri daxildir. Səfər zamanı komanda heyətini Stavropol Dövlət Tibb Universitetinin rektoru, professor Vladimir Koşel qəbul etdi. Tələbələrlə səmimi söhbət zamanı professor Koşel ölkələrimiz arasındakı dostluq münasibətlərindən, həmçinin universitetlərimiz arasında yaranmaqda olan əməkdaşlıqdan söz açdı. Cənab rektor iki ali məktəb arasında əlaqələrin daha da gücləndirilməsinin tərəfdarı olduğunu bildirdi".

N.Zeynalov bildirir ki, Tibb Universitetinin "AMU Fires" komandası Olimpiadanın 6 müsabiqəsində uğurla çıxış edərək fəxri IV yerə layiq görülüb.

Qeyd edək ki, Stavropolda ilkin və təxirəsalınmaz tibbi yardım üzrə olimpiada artıq dördüncü dəfədir keçirilir. Bu il tələbələr yaşıl ərazidə yerləşən sağlamlıq düşərgəsində yarışıblar. Onlar terror aktından əziyyət çəkənlərə, bədbəxt hadisələrdən ziyan görənlərə ilkin tibb yardım göstərilməsi üzrə tapşırıqları yerinə yetiriblər.

ATU-nun mətbuat xidməti

# Fakültə TEC-nin konfransı keçirilib

- Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyəti tərəfindən fakültənin elmi konfransları keçirilib. Elmi konfransın ilk günündə 12 məruzə dinlənilib. Fakültə dekanı, dosent İsrail Məhərrəmbəylinin sədrliyi ilə keçirilən konfransda 4 nəfərdən ibarət münsiflər heyəti fəaliyyət göstərib.





V kurs tələbəsi Ülvi Ələşrəfov "Şizofreniya xəstələrində siqaret istifadəsi ilə depressiv simptomlar arası əlaqənin araşdırılması" (elmi rəhbəri psixiatriya kafedrasının həkimi İkram Rüstəmov) işinə görə I yerə, III kurs tələbəsi Aydan İsgəndərzadə və Soltanxanım Ağazadənin birgə təqdim etdikləri "Yuinq sarkoması ilə şəxsi tanışlıq və diaqnozun qoyulmasında şüa diaqnostikanın rolu" (elmi rəhbəri Şüa diaqnostikası və şüa terapiyası kafedrasının dosenti Arzu Mehtiyeva) və III kurs tələbələri İradə Atayeva və Şəbnəm Vəliyevanın təqdim etdikləri "Нарушения липидного обмена в крови и лимфе при сахарном диабете" (elmi rəhbərləri professor M.Əliyev, L.Səfərəliyeva) mövzusundakı elmi işləri isə II yerə layiq görülüb.

Təşkilatçılıq nöqteyi-nəzərindən yüksək səviyyədə keçirilən konfransın ikinci günündə 3 qalib seçilib.

Qeyd edək ki, birinci yerlərin sahiblərinə Edulandiya kursundan 60%, ikinci yerləri tutanlara 40%, üçüncü yerlərin sahiblərinə isə 20% endirim kuponu hədiyyə edilib. Bütün elmi iş götürən tələbələr həmin kursdan 10%-lik endirim kuponu, elmi işlərinin dərc olunduğu kitabça və sertifikatla təltif olunublar.

Bu il ilk dəfə olaraq konfrans Tədris Cərrahiyyə Klinikasında keçirilib. Həmçinin ilk dəfə bütün işlər elmi konfranslardan öncə yoxlanılıb, istiqamətləndirilib və nəzarət aparılıb. Eyni zamanda, ilk dəfə konfransın işlərini ehtiva edən kitabça çap edilib.

# Tələbələrimiz sağlam həyat tərzini təbliğ edirlər

Mayın 20-də Azərbaycan Tibb Universitetinin tələbələrinin təsis etdiyi "Sağlam Həyat Assosiasiyası"nın təşkilatçılığı ilə "Sağlamlığa kompleks yanaşmanın tibbi əsasları" adlı elmi-praktiki konfrans keçirilib.

bariatrik-cərrah, Taryel Ömərov "Piylənmənin cərrahi müalicəsi", neyrocərrah, Milana Hospitalın həkimi Dr.Əliosman Qədimbəyli, "Disk yırtıqlarında müasir cərrahi taktikalara baxış" mövzularında məruzələrlə çıxış ediblər. Aktual mövzularda olan məruzələr iştirakçılar və tələbələr tərəfindən böyük maraqla qarşılanıb.




300 nəfərin iştirakı ilə keçirilən konfransda Mərkəzi Klinik Xəstəxanın baş həkimi, tibb elmləri doktoru, kardiocərrah Kamran Musayev "Kardiovaskulyar təbabətdə deontoloji problemlərə aktual yanaşma", ATU-nun dermatovenerologiya kafedrasının dosenti, tibb elmləri namizədi Elşad Novruzov "Gənclik sızanaqları – Akne vulqaris", ATU-nun həkim-dietoloqu Leyla Zülfüqarlı "Obezite. Piylənməyə səbəb olan milli xüsusiyyətlərimiz", ATU-nun uroloq-cərrahı Vasif İsmayıl "Qocalan orqanizmdə uroloji əhəmiyyət kəsb edən dəyişikliklər", Modern Hospitalın baş həkimi,

"Sağlam Həyat Assosiasiyası" ATU-nun tələbələri Rauf Vəliyev, Məhəmməd Məmmədov və Vüqar Xəlilli tərəfindən təsis edilib.

Təşkilatın məqsədi cəmiyyətə düzgün həyat tərzinin aşılanması, gənclərin fiziki və əqli cəhətdən sağlam formalaşması, sağlam qidalanmanın təbliği ilə bağlı maarifləndirmə işinin təşkili və s. ibarətdir. Qeyd edək ki, ATU-nun tələbələri hələ təşkilatlanmazdan öncə də sağlam həyat tərzinə dair maarifləndirmə işlərində, müxtəlif təşəbbüslərdə iştirak ediblər.

# ATU-da "TƏLƏBƏ KARTI"nın qeydiyyatı başlayıb

Artıq bir neçə ildir ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən ali məktəb tələbələri üçün xüsusi "Tələbə endirim kartları" verilir. Artıq Azərbaycan Tibb Universitetinin tələbələrinə də bu kartlar təqdim olunur.

Kart sahibləri tələbələrə Avropanın 37 ölkəsində 80.000, Azərbaycanda isə 200-dən artıq obyektdə 5%-dən 55%-ək endirimlər təklif edir. Tələbə endirim kartı Avropa Tələbə Kartının Azərbaycan üçün nəzərdə tutulan formasıdır. Avropanın digər ölkələrində tələbələr üçün hansı endirimlər tətbiq olunursa, bizim gənclər də xaricdə olarkən eyni yerlərdə həmin güzəştləri əldə edə biləcəklər. Azərbaycanda isə endirimlər müxtəlif sahələri əhatə edən obyektlərə aiddir.

Hazırda ATU-da tələbə kartını əldə etmək



istəyənlərin qeydiyyatına başlanılıb. Qeydiyyat ATU-nun Tələbə Gənclər Təşkilatının fəalları tərəfindən aparılır. Onu da qeyd edək ki, qeydiyyatdan keçmək istəyən tələbələrə mobil nömrə də hədiyyə olunur.

ATU-nun mətbuat xidməti

# Afrikada malyariyaya tutulan şəxs klinikamızda müalicə olunub

Serebral koma ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına başqa bir xəstəxanadan köçürülmüş pasiyentin anamnestik məlumatlarında Afrika ölkələrinin birində səyahətdə olduğu məlum olub.



Qeyd edək ki, əvvəlki xəstəxanada malyariya ehtimalı inkar olunmasına baxmayaraq, müalicə həkimlərinin istəyinə əsasən universitetin klinikasının mərkəzi laboratoriyasında bu bir daha araşdırılıb. Klinik mikrobiologiya mütəxəssisi Leyla Rəhimli tərəfindən p falciparum-a məxsus görüntü əldə edildikdən sonra, xəstəyə malyariya diaqnozu qoyulub.

Malyariya əleyhinə preparatlarla müalicəyə başladıqdan bir neçə gün sonra pasiyentin vəziyyəti stabilləşib və o 24 gün sonra tam sağlam şəkildə evə buraxılıb.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin IV kurs, 277a qrup tələbəsi Babazadə Günel Arif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin VI kurs, 1131b qrup tələbəsi Hümbətzadə Hüseyn Afət oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 147b qrup tələbəsi Zeynalov Nağı Ağaqulu oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 787b qrup tələbəsi Haghgou Kalibar Nasim Yusif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 310a qrup tələbəsi Yusibzadə Elmar Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 781b qrup tələbəsi Məmmədova Nərmin Ziyəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 721b qrup tələbəsi Möhsümov Möhsüm Cəmaləddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin I kurs, 1126b qrup tələbəsi Aslanov Hacıbaba Elman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, 700b qrup tələbəsi Yahyayeva Reyhan Rauf qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, 841b qrup tələbəsi Musayeva Fərqanə Məcid qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 165b qrup tələbəsi Əlizadə Nail Nihad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin VI kurs, 630a qrup tələbəsi Süleymanova Günay Elxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, 801a qrup tələbəsi Mirzəyeva Zəhra Nəriman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 361b qrup tələbəsi Rəhimli Hənnan Vidadi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 162a qrup tələbəsi Suvarova Zeynəb Sərdar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları dosent Əzizə Rüstəmzadəyə qardaşı

**Atif İbrahimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikolji kimya kafedrasının kollektivi kafedranın keçmiş əməkdaşı, dosent

**Ələkbərova Arifə Yusif qızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları dosent Natiqə Həsənovaya həyat yoldaşı

**Fərrux Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları professor Arif Quliyevə həyat yoldaşı

**Gülnaz Əhmədlinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın müəllimi t.e.n. S. Sultanovaya bacısı

**Məlahət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın preparatoru Sveta Əliyevaya anası

**Natalya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları Dürdanə Rəhimzadəyə və Təranə Nəcəfovaya xalaları

**Gülnaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları kafedranın assistenti Tamella Əmirəliyevaya atası

**Əmirəli Əmirəliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800